# Miniatür sənəti

**Azərbaycan rəssamlığının inkişafı bilavasitə Şərq miniatür sənətinin çiçəklənməsi ilə bağlı olmuşdur. Çətin və uzun inkişaf yolu keçmiş fars miniatür sənəti dünya rəssamlığında öncül yerlərdən birini tutur. Tədqiqat sübut edir ki, XIII-XIV əsrlərin miniatür rəssamlığı əvvəlki əsrlərin miniatür sənətinin inkişafının qanunauyğun nəticəsidir.**

**Ərəb coğrafiyaşünası Əl-Məsudinin X əsrdə nəşr olunmuş sasani hökmdarlarının portretlərinin yer aldığı kitabı miniatür sənətinin Şərqdə hələ sasanilərin (III-VII əsrlər) hakimiyyəti zamanından mövcud olması fikrini təsdiq etməyə əsas verir. Bizə gəlib çatan ilk miniatürlər XIII əsrin ortalarına aid olan "Vərqa və Gülşah" manuskript miniatürləridir.**

Miniatürlər əsasən illüstrasiyalar üçün nəzərdə tutulmuşdur. O, bədii mətni zərif obrazlarla tamamlayaraq onu daha maraqlı edirdi. Miniatürlərin yaradılmasında Firdovsi, Sədi, Hafiz, Nizami və başqa klassiklərin ölməz əsərləri tükənməz ilham qaynağı olmuşdur. Miniatür rəssamlığının əsas istiqaməti və məzmununu poeziya müəyyən edirdi. XIX əsr fars rəssamlığının xüsusiyyətlərindən biri də o idi ki, miniatürlərin personajları praktiki olaraq heç vaxt tamaşaçıya baxmırdı. Miniatürlər yalnız sulu boyalar ilə yerinə yetirilirdi. Kətan və yağlı rənglərin məişətdə istifadə olunması Avropa ölkələrinin janr və mədəniyyətinin təsiri ilə bağlı idi.

Fars ustalarının əsərləri başlıca olaraq kətan lifindən hazırlanmış kağız üzərində işlənirdi. Fars rəssamları əsasən təbii və qeyri-təbii rənglərdən istifadə edirdilər. Qeyri-təbii rənglərə qızıl, gümüş, lyapis-lazurit (ultramarin göy boya rəngi almaq üçün istifadə olunurdu) aid idi. Lazım olan rənglər arasında uyğunluğu, ahəngi yaratmaq üçün mənbələr kifayət qədər geniş idi və bu, bəzi piqmentlərin digərləri ilə əvəz edilməsinə imkan verirdi.

Miniatürlərin əsasən ənənəvi xarakter daşıması trafaretlərin geniş tətbiqinə imkan yaratmışdır. Bu aşağıdakı üsulla həyata keçirilirdi: rəssam əvvəlcə seçilmiş rəsmin konturlarını cızır, bundan sonra onun üzərinə təmiz vərəq qoyaraq xırdalanmış kömürü trafaretin üzərinə silkələyirdi. Beləliklə, o, rəsmin konturlarını vərəqin hamar səthinə köçürürdü. Daha sonra astar çəkib güclə sezilən konturları haşiyələyərək onları rəngləyirdi.

***

Azərbaycan tarixinin bu dövrü onun mədəniyyət və incəsənətinin tərəqqisi və inkişaf dövrü kimi xarakterizə olunur. Bu dövrdə Azərbaycan incəsənətinə Yaxın Şərqin təsiri aşkar sezilirdi ki, İslamın qəbulundan sonra isə bu təsir daha çox hiss olunmaqda idi. Bu dövr həm də ona görə maraq doğurur ki, "Kitab əl-tiryək", "Kitab əl-Əqani" və "Vərqa və Gülşah" kimi bizə gəlib çatmış ilk miniatürlər XII-XIII əsrlərə aiddir. Miniatürlərin əsas personajları enlisifət, göz kəsiyi dar olan kişilər və girdəsifət, bir az dolubədənli qadınlar olurdu.

Bu dövrdə öz inkişafında görünməmiş yüksəkliyə çatmış bədii keramika da mühüm əhəmiyyət kəsb edirdi. Bununla əlaqədar olaraq, yeni bədii həll və motivlərin meydana gəlməsi müşahidə olunurdu.

***

On dördüncü əsrin əvvəllərində qrafika və boyakarlıq üslublarının qovuşması ilə uğurlu inkişafın nəticəsi kimi yeni bədii üslubun meydana gəlməsinə ilkin zəmin yaranmışdır. 58 məşhur miniatürdən ibarət olan "Böyük Təbriz Şahnaməsi" (1340-1350), yaxud "Demot Şahnaməsi" adlanan məşhur əlyazma çox yüksək qiymətləndirilirdi. Tədqiq olunan dövrdə İbn Bəxtişunun 94 miniatür ilə illüstrasiya olunmuş "Mənafi əl-Heyvan" əlyazması (1297-1299) da diqqəti cəlb edirdi. Bu həmin əsərlərdə ərəb-Mesopotamiya və Çin-uyğur sənətinin ənənələrinin Təbriz miniatür rəssamlığının təşəkkülünə təsirinin aydın xətt ilə seçilməsi ilə izah olunurdu.

Bununla yanaşı, onu ayıran və kifayət qədər orijinal edən yerli ənənələr də müşahidə olunurdu ki, bu da incəsənətin inkişafında və sonrakı dövrlərdə də dərin iz buraxdığını sübut etməkdədir. Onun meydana gəlməsi Rəşidəddinin yazışmaların həyata keçirilməsi və manuskriptlərin bəzədilməsi arzusu ilə bilavasitə bağlı idi və o, bu məqsədlə Təbrizə xəttat və rəssamları toplamışdır. 1330-1340-cı illərdə Qiyasədin Məhəmməd tərəfindən sifariş olunan və üç rəssam tərəfindən yaradıldığı güman edilən, Təbriz məktəbinə məxsus "Şahnamə"dəki miniatürlər böyük əhəmiyyət kəsb edir. "Kəlilə və Dimnə", "Şahnamə" "Cami-ət-təvarix", "Divan", eləcə də "Xosrov və Şirin" əsərlərinin əlyazmaları da türk-monqol başlanğıc dövrünün parlaq nümunələri hesab oluna bilər.

Təbriz məktəbi nəinki Azərbaycanda, hətta onun hüdudlarından uzaqlarda da yüksək qiymətləndirilirdi. Görkəmli alman sənətşünası F.Şults onu qonşu Şərq ölkələrinin miniatür sənətinin inkişafına təsir göstərmiş və ənənələrinin geniş yayılmış "ana məktəb" adlandırmışdır. Lakin Elxanilər hakimiyyətinin süqutu bu məktəbin inkişafına mənfi təsir göstərmiş, onu əhəmiyyətli dərəcədə zəiflətmişdi.

Çin təsirindən tamamilə azad olan və müstəqilliyi ilə seçilən Şiraz məktəbi də böyük əhəmiyyətə malik idi. Bununla belə, burada da XIII əsr Bağdad məktəbinin təsiri müşahidə olunurdu. Bu məktəbə aid olan 7 miniatür nümunə məlumdur. Onlardan 4-nə "Şahnamə"də ("Şahların kitabı") tə-

Müsəvvir isə tərcümədə rəssam deməkdir. O, bütün Şərqdə tanınmış miniatürçü rəssam Behzadın şagirdi olmuşdur. Hələ sağlığında şöhrət qazanmışdır və çoxsaylı şagirdlərin müəllimi olmuşdur ki, bunların içərisində onun oğlu Mir Seyid Əli xüsusilə seçilirdi. Bəzi mənbələr ehtimal etməyə əsas verir ki, Mir Müsəvvirin oğluna verdiyi yalnız atalıq nəsihətləri olmuşdur, incəsənət sahəsində isə nadir hallarda məsləhətlər vermişdir. Onun Təhmasiblə birlikdə getməsi məsələsi də mübahisəlidir. Bəzi alimlərin məlumatlarına görə, onun əvəzinə oğlu getmişdir, digər alimlər isə onun oğlu ilə birlikdə Hindistana getdiyi barədə məlumat verirlər.

Ölkəmizin mədəni irsini zənginləşdirən Rizayi Abbasın yaradıcılığını qeyd etməmək olmaz. O, ikinci şah İsmayılın sarayında işləyən rəssam Əli Əsgərin ailəsində anadan olmuş, atası kimi şah Abbasın sarayında işləmişdir. Rəssamın əsl adı Ağa Rizadır. Ancaq o adını hökmdarın şərəfinə dəyişmişdir. Adının dəyişməsi onun işlərinin müəllifliyinin müəyyənləşməsində müəyyən qarışıqlıq yaratmışdır ki, mütəxəssislər arasında bunun iki müxtəlif adam olduğu fikrinin meydana gəlməsinə səbəb olmuşdur. Onun öz yaradıcılığı ilə miniatür sənətinə gətirdiyi yenilik rəsmlərə daha çox dinamiklik verən müxtəlif qalınlığı olan cizgilərin istifadə edilməsi idi (bəzi alimlər Sadiq bəyin bu ideyanın müəllifi olduğunu qeyd edərək bu faktı şübhə altına alırlar). O artıq ahıl yaşında şah emalatxanasından bir müddət uzaqlaşaraq sadə küçə həyatının və personajların təsviri ilə məşğul olmağa başlamışdı. Bununla belə, yenə də saray əyanlarının təsvirini çəkirdi. O, habelə rəssam Kəmaləddin Behzadın işlərinin motivləri ilə yaradılmış miniatürlər seriyasını da yaratmışdır.

Alimlərin ehtimalına görə, o, özünün bacarıq və ustalığını rəssamın bəzi rəsmlərini başa çatdıran oğlu Məhəmməd Şəfi Abbasiyə ötürmüşdü. Birinci şah Abbasın şəxsi katibi, tarixçi İsgəndər Münşi (1561-1634) özünün "Abbasın dünyanı bəzəyən tarixi" əsərində şah emalatxanasının bəzi rəssamlarını, o cümlədən zəmanəsinin möcüzəsi adlandırdığı, dəlisov ruha malik Rizayi Abbası da təsvir etmişdir.

İncəsənətin bütün bu xadimləri ölkəmizin incəsənətinin formalaşmasında və zənginləşməsində mühüm rol oynamışlar, onların adları misilsiz incəsənət mirvarilərinin yaradıcıları kimi əbədi olaraq yaddaşımızda qalacaqdır. Onlar sonradan Şərq mədəniyyətini öz rəngarəngliyində belə nəfis, parlaq və heyranedici edən təcrübəni uzun əsrlər boyu yaratmış, qoruyub saxlamış və nəsildən-nəslə ötürmüşlər.

***

Bu dövr daxili müharibələr, hakimiyyət uğrunda mübarizə, müstəqil xanlıqların yaranması, ərazinin Rusiya və İrana birləşdirilməsi ilə xarakterizə edilir. Bütün bunlar incəsənətə də neqativ təsir etmiş, klassik miniatür incəsənətinin tənəzzülünə səbəb olmuşdu. XVIII-XIX əsrlərdə yaradılmış miniatürlər həddindən artıq sadə və hətta sxematik idilər. Lakin mətbəəçiliyinin meydana gəlməsi miniatür yaradıcılığının özünəməxsus katalizatoruna çevrilmişdi: kitabların sayının çoxalması miniatürçülərin işlərinə tələbatın artmasına əsas vermişdi. Müəyyən dövr axarında miniatürlərin süjetləri daha məhdud olmağa başlamışdı. Təsviretmənin əsas mövzusu sevgi səhnələri və kübar əyanların portretləri oldu. Bu dövrdə miniatürdə güllərin və quşların təsviri kimi yeni bir cərəyan yarandı.

Avropa ölkələri mədəniyyətinin güclü təsiri XVIII-XIX əsrlərin miniatür rəssamlığının səciyyəvi xüsusiyyətlərindən biri olmuşdu. Ona maraq hələ bu dövrdən çox əvvəllər, XVI əsrdə yaranmışdır, lakin məhz XVIII-XIX əsrlərdə özünün kulminasiyasına çatdı. Rəssamlar arasında Avropa rəssamlarını təqlid etməklə məşğul olan Məhəmməd Şirazini qeyd etmək olar. Avropa ölkələri ilə siyasi əməkdaşlıq, təbii ki, mədəniyyət sahəsində də özünü göstərirdi: müxtəlif ölkələrin nümayəndələri mədəniyyət əsərləri ilə mübadilə edirdi. Bir çox Avropa rəssamları ölkədə qalırdı.

**Çox şey müvafiq olaraq İsfahan məktəbindən götürülmüşdü: onlar işıq kölgəsini, perspektivi və s. ötürməyə başladılar. XVIII-XIX əsrlər İsfahan miniatür məktəbinin rəssamları arasında Əli Qulu bəy Cabbadar, Məhəmməd Sultani və başqalarının işlərini qeyd etmək olar.**

**Vəfa ALLAHYAROVA,**
*Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının müəllimi*

## Ədəbiyyat

1. Ə. Salamzadə, K. Kərimov. XVI əsrdə Təbriz miniatür məktəbi və rəssam Sultan Məhəmməd. B. - 1959.
2. K. Kərimov. Azərbaycan miniatürləri. B. - 1980.
3. A. Казиев. Художественное оформление азербайджанской рукописной книги XIII - XVII веков. М. - 1977.
4. Г. Пугаченкова, О, Галеркина. Миниатюры Средней Азии. М. - 1979.

**Summary**

There is an interminable amount of dazzling works of art, executed in water colours. The culture is tightly linked to the fine arts and water colors are its integral part. All riches of culture are expressed in fine arts/ Just as a branch of the tree acquires rings, as well as culture was enriched from century to century, transferring the experience of past times and even more developing it.

**Резюме**

Существует несметное количество прекрасных произведений, исполненных акварелью. Культура непосредственно связана с искусством, и акварель является е, неотъемлемой частью. Все богатство и очарование культуры воплощается в изобразительном искусстве. Подобно тому, как ствол дерева со временем обрастает кольцами, также и культура обогащалась из века в век, передавая опыт минувших лет и ещ, более развивая ее.